Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyində
Dövlət Qeydiyyatına Alınmışdır

«     «____________2003-cü il

Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı
İdarəsinin

Rəisi___________F.Məmmədov

«Təsdiq edilib»

Azərbaycan Qızıl Aypara
Cəmiyyətinin «12» Mart 2003-cü il
Tarixli Qurultayında

Cəmiyyətin Prezidenti N.Aslanov

# Azərbaycan Qızıl Aypara

# Cəmiyyətinin

# NİZAMNAMƏSİ

# (Yeni redaksiya)

## MÜQƏDDİMƏ

Biz - müxtəlif peşəyə, yaşa, milliyyətə, dini mənsubiyyətə, siyasi əqidəyə malik Azərbaycan Qızıl Aypara Cəmiyyətinin üzvləri insansevərlik və xeyirxahlıq prinsiplərinin xalq arasında təbliğinin önəmliyini rəhbər tutaraq, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatında (bundan sonra Hərəkat adlandırılacaq) qəbul edilmiş mövcud sənədlərə, 1949-cu il 12 avqust tarixli Cenevrə Sazişlərinə və digər beynəlxalq aktlara, Azərbaycan Respublikası Milli Məclisinin «Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işini yaxşılaşdırmaq haqqında» 1994-cü il, 25 Noyabr tarixli, 926 saylı qərara, 8 May 2001-ci il tarixli «Qırmızı Xaç və Qırmızı Aypara Emblemlərindən istifadə və onların müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanuna və digər qanunvericilik aktlarına müvafiq olaraq, uzun müddət Respublikada xalqın az təminatlı təbəqəsinə, müharibə, təbii və texnoqen fəlakətlər zamanı zərər çəkmiş insanlara təmənnasız tibbi-sosial, humanitar və s. xidmət göstərilməsini, insanın əsas hüquqlarına, insan şəxsiyyətinin ləyaqət və dəyərliliyinə, dini əqidə və milli mənsubiyyətindən asılı olmayaraq adamların bərabər hüquqlu olmasına, insansevərliyə və canıyananlığa inamını bir daha təsdiq edərək, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının əsas prinsiplərini, məqsəd və vəzifələrini Azərbaycan Respublikası ərazisində həyata keçirmək üçün səy və cəhdlərimizi birləşdirməyi qərara almışıq.

## I Bölmə

### 1-ci MADDƏ

### MİLLİ HÜQUQİ STATUS VƏ BEYNƏLXALQ XARAKTER.

1920-ci il Mart ayının 10-da təsis edilmiş Azərbaycan Qızıl Aypara Cəmiyyəti Azərbaycan Respublikasının da iştirakçısı olduğu 1949-cu il Cenevrə Sazişləri ruhunda yaradılmışdır.Cəmiyyət 1996-cı il noyabr ayının 1-də Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 360 № ilə dövlət qeydiyyatına alınmışdır.

Cəmiyyət 1949-cu il Cenevrə Sazişlərinə uyğun olaraq, «Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işini yaxşılaşdırmaq haqqında » Azərbaycan Respublikası Milli Məclisinin 25 noyabr 1994-cü il tarixli, 926 saylı qərarına əsasən, Cəmiyyət Hərəkatın tərkib hissəsi olmaqla, ölkə ərazisində bu sahədə fəaliyyət göstərən yeganə ümumxalq, könüllü, qeyri-siyasi, ictimai, humanitar təşkilatdır. Cəmiyyət humanitar sahədə hökümətə yardımçıdır.

Cəmiyyət öz missiyasını Respublikanın bütün ərazisində yerli strukturlar vasitəsilə həyata keçirir. Az.QAC Hərəkatın başlıca prinsiplərinə müvafiq şəkildə dövlət orqanları ilə münasibətdə öz muxtariyyətini qoruyub saxlayaraq fəaliyyət göstərir.

Cəmiyyətin Hakimiyyət dairələri ilə münasibəti Fundamental Prinsiplər çərçivəsində qarşılıqlı hörmət, əməkdaşlıq və qanunlara əsaslanaraq qurulur. Cəmiyyət hüquqi şəxs statusuna malikdir. Onun Baş Qərargahı Bakı şəhərində Azərbaycan prospekti, 19 ünvanında yerləşir.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Konstitusiyasına uyğun olaraq, 1995-ci il Noyabr ayının 1-də rəsmən tanındığı Beynəlxalq Qızıl Xaç Komitəsi, 1995-ci il Noyabr ayının 25-də üzvü olduğu Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası və digər beynəlxalq humanitar təşkilatlarla əməkdaşlıq edir.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti öz humanitar fəaliyyətində Azərbaycan Respublikası ərazisində fəaliyyəti müəyyən edilən və Azərbaycan Respubliukası

hökümәti ilә bağlanan sazişә әsasәn, Beynәlxalq Qızıl Xaç vә Qızıl Aypara Cәmiyyәtlәri Federasiyasının vә Beynәlxalq Qızıl Xaç Komitәsinin dәstәyinә vә әmәli yardımına arxalanır.

Azәrbaycan Qızıl Aypara Cәmiyyәti, Azәrbaycan Respublikası Qanunvericiliyinә uyğun olaraq, xarici dövlәtlәrin Milli Qızıl Xaç vә Qızıl Aypara Cәmiyyәtlәri ilә әmәkdaşlıq edir.

## 2-ci MADDӘ

## CӘMİYYӘTİN FӘALİYYӘTİNİN FUNDAMENTAL PRİNSİPLӘRİ

Azәrbaycan Qızıl Aypara Cәmiyyәti Beynәlxalq humanitar hüququn prinsiplәrini, hәmçinin, Beynәlxalq Qızıl Xaç vә Qızıl Aypara Hәrәkatının 7 Fundamental prinsiplәri әsasında fәaliyyәt göstәrir:

### İNSANSEVӘRLİK

Ayrı-seçkilik etmәdәn döyüş meydanlarında yaralılara yardım göstәrmәk zәrurәtindәn yaranmış Beynәlxalq Qızıl Xaç vә Qızıl Aypara Hәrәkatı istәr beynәlmilәl, istәrsә dә milli sәviyyәdә hәr hansı bir şәraitdә insan iztirablarının qarşısını almağa vә onları yüngüllәşdirmәyә çalışır. Hәrәkat insan hәyatı vә sağlamlığını qorumaqla yanaşı, insan şәxsiyyәtinә hörmәtlә yanaşmağı da himayә etmәk mәqsәdi güdür. O, bütün xalqlar arasında qarşılıqlı anlaşma, dostluq, әmәkdaşlıq vә möhkәm sülh olması üçün çalışır.

### QӘRӘZSİZLİK

Hәrәkat heç kәsә dini, irqi, milli xüsusiyyәtlәrinә, sinfi mәnsubiyyәtinә, siyasi әqidәsi vә sosial mövqeyinә görә fәrq qoymur. O, adamların düşdüklәri әzab-әziyyәtin ölçüsünә görә yardım edir; ilk növbәdә әn ağır bәlalara düçar olanların kömәyinә tәlәsir.

### NEYTRALLIQ

Hamının ona olan inamını qoryub saxlamaq mәqsәdilә, hәrbi münaqişәlәrdә heç bir tәrәfi müdafiә etmәyәrәk, düşmәnçiliyә qarışmır, siyasi, irqi, dini vә ideoloji mübahisәlәrdә bitәrәf mövqe nümayiş etdirir.

### MÜSTӘQİLLİK

Hәrәkat müstәqildir. Öz insansevәrlik fәaliyyәtindә mövcud hakimiyyәtә yardımçı olub, ölkәsindә hakim olan qanunlara tabe olmaqla Milli Cәmiyyәtlәr öz muxtariyyәtlәrini qoruyub saxlayırlar ki, bu da onlara Qızıl Xaç Hәrәkatının prinsiplәri ilә işlәmәk imkanı verir.

### KÖNÜLLÜLÜK

Hәrәkat heç bir maraq güdmәyәn könüllü yardım müәssisәsidir.

### VAHİDLİK

Bir ölkədə yalnız bir Qızıl Xaç və Qızıl Aypara Cəmiyyəti ola bilər. Onun qapıları hamının üzünə açıq olmalı və öz insansevərlik fəaliyyətini ölkənin bütün ərazisində görmələdir.

**UNİVERSALLIQ**

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı ümumbəşəri, universal bir qurumdur ki, bu qurumda bütün Cəmiyyətlərin bərabər hüquqları vardır və onlar bir-birlərinə kömək etməyə borcludurlar.

## 3-cü MADDƏ

## QURULUŞ

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin strukturu:

1. Baş Məclis

2.İdarəetmə Şurası və Rəyasət heyəti.

3.Ali Rəhbərlik

4.Katiblik - (rəhbərlik, koordinasiya, ali icra, nəzarət, strateji məsələlər, Baş məclis, İdarəetmə Şurası və Rəyasət Heyətinin qəbul etdiyi qərarların icrası, emblemin işlədilməsinə nəzarət)

5.QızılAypara cəmiyyəti İdarəetmə Şurasının qərarı əsasında ərazi vahidi ilə yaradıla bilən, regional mərkəzlər , şəhər və rayon komitələrini birləşdirən ilk təşkilatlar.

6.Qızıl Aypara Cəmiyyətinin vəzifə fəaliyyətini Azərbaycan Respublikasının bütün ərazisində həyata keçirilməsini təmin edən regional mərkəzlər, şəhər, rayon komitələri.

7.Qızıl Aypara Cəmiyyətinin vəzifə fəaliyyətini Naxçıvan Muxtar Respublikasının bütün ərazisində təmin edən, Naxçıvan Muxtar Respublikası Komitəsi və onun əhatə etdiyi şəhər və rayon komitələri.

## 4-cü MADDƏ

## QIZIL AYPARA EMBLEMİ

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Qızıl Aypara Emblemindən istifadə «Qırmızı Xaç və Qırmızı Aypara Emblemlərindən istifadə və onların müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununu, 1991-ci ildə Nümayəndələr Şurası tərəfindən qəbul edilmiş «Milli Cəmiyyətlər tərəfindən Qızıl Xaç və Qızıl Aypara Emblemindən istifadə üzrə qaydalar» ilə tənzimlənir.

Qızıl Aypara emblemi ağ fonun ortasında qırmızı rəngdə olan ayparanın təsviridir.

Embelmdən istifadə etmə qaydaları «Qırmızı Xaç və Qırmızı Aypara emblərindən istifadə edilməsi və müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanunu, 12 avqust 1949-cu il Cenevrə Konvensiyaları (bundan sonra- Cenevrə Konvensiyaları) və 1991-ci ildə Nümayəndələr Şurası tərəfindən qəbul edilmiş «Milli Cəmiyyətlər tərəfindən Qızıl Xaç və Qızıl Aypara Emblemindən istifadə üzrə qaydalar» ilə təşkil olunur.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti yeganə təşkilatdır ki, Azərbaycan Respublikasının ərazisində Qızıl Aypara Emblemini öz Emblemi kimi, «Qızıl Aypara» söz birləşməsini isə öz adında istifadə etməyə səlahiyyətlidir.

Cəmiyyət fövqəladə hallar zamanı, təbii fəlakətlər və digər hallarda, nəqliyyat vasitələrində öz bayraqlarından və emblemindən istifadə edir .

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Emblemi və bayraqları aşağıdakı kimi istifadə oluna bilər:

- Az.QAC-ın istifadə etdiyi binalarda ona mənsub olan nəqliyyat vasitələrində və tibbi əmlak saxlanılan yerlərdə;
- Qızıl Ayparanın fəaliyyəti, Beynəlxalq Humanitar Hüquq və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı haqqında əhalinin tanışlığı üçün keçirilən tədbirlər zamanı asıla (çıxarıla) bilər;
- Az.QAC tərəfindən buraxılan nəşriyyat (çap) materiallarının üzərində öz əksini tapa bilər;
- Az.QAC tərəfindən hazırlanmış və ya onun sifarişi ilə, məhsullarda öz əksini tapa bilər, o cümlədən medallarda, döş nişanları, markalarda və s.
- Az.QAC tərəfindən göndərilən humanitar yardımlarına üzərində əks oluna bilər;

Az.QAC-ın Emblemi Cəmiyyətin üzvləri, aparatın işçiləri və Az.QAC-ın icazəsi ilə onun tədbirlərində iştirak edən şəxslər tərəfindən istifadə olunur.

AzQAC-nin nişanı kimi qırmızı dairənin içərisində ətrafında Azərbaycan və ingilis dillərində «AzQAC» sözləri ilə əhatə olunmuş ağ fonda qırmızı aypara nişanı istifadə olunur.

Azərbaycan Respublikasının ərazisində Qızıl Aypara embleminin istifadəsinə nəzarət öz səlahiyyətləri daxilində Azərbaycan Qızıl Aypara Cəmiyyəti və səlahiyyətli dövlət orqanları tərəfindən həyata keçirilir.

## II Bölmə

## 5-ci MADDƏ

## CƏMİYYƏTİN ƏSAS MƏQSƏD VƏ VƏZİFƏLƏRİ, FƏALİYYƏTİNİN İSTİQAMƏTLƏRİ.

- Azərbaycan Qızıl Aypara Cəmiyyəti Cenevrə Konvensiyalarına uyğun olaraq hərbi münaqişələr zamanı və sülh dövründə hərbçilərin və mülki əhalinin arasında müharibə qurbanlarının maraqlarına uyğun olaraq öz fəaliyyətini qurur.

- Müxtəlif təbii fəlakətlərdən zərər çəkənlərə imkanı daxilində təxirə salınmaz yardım göstərir.

- Qızıl Xaç və Qızıl Aypara və digər beynəlxalq təşkilatlar xətti ilə Cəmiyyətə ünvanlanan və Respublikaya daxil olan digər beynəlxalq humanitar yardımların zərər çəkmiş insanlara çatdırılmasını təşkil edir.

- Fəlakətin vurduğu ziyanın tez bir zamanda aradan qaldırılması məqsədilə fövqəladə hallara hazırlıq işlərini aparır, bu məqsədlə özünün regional və yerli strukturlarının maddi-texniki bazasını yaradır və onu gücləndirir.

- İlk yardım proqramını həyata keçirir, təbii fəlakətlər və münaqişələr zamanı könüllü fəaliyyət üçün tibb bacıları, tibb qardaşları və tibb təlimatçıları hazırlayır.

- Əsir və itgin düşmüş vətəndaşların Beynəlxalq səviyyədə axtarışını və bir - birindən ayrı düşmüş ailə üzvlərinin qovuşmasını təşkil edir.

- Azərbaycan Respublikasının ərazisində məskunlaşan qaçqın, məcburi köçkün, sığınacaq axtaran və məcburi mühacirlərin iztirablarının azaldılmasına yönələn hüquqi məsləhət, psixoloji reabilitasiya, peşəkar qabiliyyətlərin artırılması və s. proqramları həyata keçirir.

- İctimai səhiyyə proqramlarının, xəstəlik və epidemiyaların qarşısının alınması proqramlarını həyata keçirir.

- Bütün insanlar və xalqlar arasında sülh, qarşılıqlı hörmət və anlaşma ideyalarını aşılamaq məqsədilə əhali, xüsusən də uşaq və gənclər arasında Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı və beynəlxalq humanitar hüququn ideya və prinsiplərini təbliğ edir.
- Azərbaycan Respublkası ərazisində yardıma ehtiyacı olan ünvanlara, Respublikanın hüquqi və fiziki şəxslərindən, əcnəbi və vətəndaşlığı olmayan şəxslərdən, beynəlxalq təşkilatlardan müxtəlif növ humanitar yardımların toplanmasını həyata keçirir və bu yardımların paylanmasında iştirak edir.

- Hərbi münaqişələrdən zərər çəkən yaralı, xəstə və digər şəxslərə yardım göstərilməsi məsələləri ilə bağlı Cenevrə Konvensiyalarından irəli gələn fəaliyyəti həyata keçirir.

- Azərbaycan Respublikasının səhiyyə müəssisələri, epidemioloji xidmətləri, Dövlət Fövqəladə Hallar komissiyası, Respublika Silahlı Qüvvələrinin tibbi xidmətləri ilə əməkdaşlıq edir.

- Humanitar yardım subyektlərinin yerləşdirilməsi, daşınması, onlara tibbi və ya digər xidmətlərin göstərilməsi məsələləri ilə bağlı dövlət orqanları ilə əməkdaşlıq edir.

- Respublika əhalisinin az təminatlı təbəqələrinə yardım göstərilməsi məsələləri ilə əlaqədar müvafiq dövlət orqanları və səlahiyyətli xidmətlərlə əməkdaşlıq edir.

- Hərbi münaqişələr və təbii fəlakət qurbanları haqqında məlumatları alır, onların qeydiyyatını aparır, saxlayır və təqdim edir.

- Hərbi münaqişələr və təbii fəlakətlər zamanı ilk yardım dəstələrini yaradır, həlak olanların və yaralıların axtarışını həyata keçirir, onların dəfn olunduğu yeri müəyyən edir. Bu məsələlərdə dövlət orqanlarına yardım edir.

- Əhaliyə və xüsusilə gənclərə ilk tibbi (sanitar) yardımla əlaqədar təlimləri təşkil edir.

- Evakuasiya olunmuş əhalinin və qaçqınların qəbulu, yerləşdirilməsi, daşınması və onlara tibbi-sosial köməkliyin göstərilməsi məsələləri ilə əlaqədar, dövlət, hakimiyyət və yerli idarəetmə orqanlarına əməli köməklik göstərir.

- Cəmiyyət qeyri-dövlət axtarış xidmətini təşkil edir, o cümlədən, itgin düşmüş şəxslərin axtarışını həyata keçirir, hərbi münaqişələr, fövqəladə hallar zamanı bir-birindən ayrı düşmüş ailə üzvləri arasında əlaqə yaradılmasına və ailələrin qovuşmasına köməklik göstərir, Azərbaycan Respublikası hüdudlarından kənarda dəfn olunan vətən müdafiəçilərinin dəfn olunduğu yerləri müəyyən edir.

- Qan və onun komponentləri donorluğunun inkişafı üzrə milli və yerli

(regional) proqramların həyata keçirilməsində və bu proqramlara vətəndaşların cəlb olunması işində səhiyyə müəssisələrinə dəstək verir.

Cəmiyyət Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının prinsiplərinə uyğun olaraq, öz Nizamnaməsindən irəli gələn məqsəd və vəzifələrə nail olmaq üçün aşağıdakı hüquqlara malikdir:

- Dövlət, hakimiyyət, yerli idrəetmə və məhkəmə orqanlarında özünün, həmçinin, uzvlərinin qanuni hüquq və maraqlarını təmsil və müdafiə etmək;

"Qırmızı Xaç və Qırmızı Aypara Emblemlərindən istifadə və onların müdafiəsi haqqında» Azərbaycan Respublikası qanununa, Cenevrə Konvensiyalarına və 1991-ci ildə Nümayəndələr Şurası tərəfindən qəbul edilmiş «Milli Cəmiyyətlər tərəfindən Qızıl Xaç və Qızıl Aypara Emblemindən istifadə üzrə qaydalara» uyğun olaraq, Qızıl Aypara emblemindən istifadə etmək;

- Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara hərəkatı, Beynəlxalq humanitar hüquq və öz fəaliyyəti haqqında məlumatları yaymaq; Cəmiyyətin ideya və vəzifələrini təbliğ etmək; Cəmiyyətin Nizamnaməsi ilə müəyyən olunmuş məqsəd və vəzifələrin həyata keçirilməsində dövlət hakimiyyət və yerli idarəetmə orqanlarından dəstək almaq; və onlarla əməkdaşlıq barəsində ikitərəfli müqavilələr imzalamaq;

- Humanitar və xeyriyyə xarakterli kütləvi tədbirlərin təşkili və keçirilməsində iştirak etmək;

- Cəmiyyət tərəfindən humanitar və xeyriyyə yardımlarının alınması və verilməsi ilə bağlı məsələləri müstəqil həll etmək;

- Öz fəaliyyəti ilə bağlı kütləvi informasiya vasitələrini məlumatlandırmaq, mətbu və poliqrafik məhsulları çap etdirmək, film və videoroliklər çəkdrmək, sərgilər, xeyriyyə tədbirləri, konsertlər, marafonlar, digər kütləvi tədbirlər keçirmək və s.

- Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərinə və qüvvədə olan qanunvericiliyə əsasən, Cəmiyyət öz Nizamnamə vəzifələrini həyata keçirmək üçün qanunla müəyyən edilmiş qaydada təşkilatlar, fondlar yaratmaq, həmçinin, müəssisə və digər qurumlar təsis etmək;

- Xəstəxanalar, apteklər, uşaq və qocalar evləri; az təminatlı şəxslər üçün yeməkxanalar təşkil etmək;

- Hərbi münaqişə və fövqəladə hallar zamanı itgin düşən hərbi əsir və vətəndaşların və onların məzarlarının axtarış işini həyata keçirmək. Axtarış işləri Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tərkib hissəsi kimi, yalnız Cəmiyyətin müstəsna hüququna aiddir.

## III Bölmə

### 6-cı MADDƏ

### ÜZVLƏR

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin qapıları heç bir fərq qoymadan irqindən, cinsindən, milliyətindən, sosial mənşəyindən, dini əqidəsindən, siyasi baxışlarından asılı olmayaraq hamının üzünə açıqdır.

Cəmiyyətin missiyası hər hansı bir ayrı-seçkiliyə yol vermədən harda olduğundan asılı olmayaraq insan iztirablarını azaltmaqdan ibarət olduğu üçün, o bu işi üzvləri vasitəsilə həyata keçirir.

Cəmiyyət üzvləri vasitəsilə icmanın ehtiyaclarını izləyə və ona qərəzsiz şəkildə köməklik göstərə bilər.

Üzvlər hüquqi və fiziki şəxs ola bilər.

### Üzvlərin qeydiyyatı:

Azərbaycan QAC üzvlüyünə qəbul müraciət edən şəxsin yaşadığı və ya işlədiyi yerdə müvafiq ilk təşkilat və ya yerli komitədə həyata keçirilir.Respublika ərazisində üzvlər yaşayış və ya iş yerlərini dəyişdikdə onların üzv kimi yenidən qeydiyyatı yeni ünvandakı müvafiq ilk təşkilat və ya yerli komitələri tərəfindən həyata keçirilir.

Cəmiyyətin tərkibinə fəal, həqiqi, fəxri üzvlər daxildir. Azəpbaycan Qızıl Aypara Cəmiyyətinin bütün üzvləri eyni hüquqludurlar. Cəmiyyətin bütün orqanlarına seçmək və seçilmək hüququna malikdirlər.

### 7-ci MADDƏ

### FƏAL ÜZVLƏR

Azərbaycan Qızıl Aypara Cəmiyyətinə xidmət etməyə razılıq verən və bu ad ilə rayon, şəhər yaxud bölgə komitələrində qeydiyyatda olub üzvlük haqqını ödəyən şəxslər fəal üzv sayılırlar.

### 8-ci MADDƏ

### HƏQİQİ ÜZVLƏR

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Baş Məclisının müəyyən etdiyi miqdarda illik üzvlük haqqlarını ödəyən şəxslər həqiqi üzv sayılırlar.

## 9-cu MADDƏ

## FƏXRİ ÜZVLƏR

Cəmiyyət qarşısında xüsusi xidmətlərinin qeyd edilməsi əlaməti olaraq İdarəetmə Şurasının təqdim etdiyi fəxri üzvlük bileti alan şəxslər fəxri üzv sayılırlar. Fəxri üzvlər üzvlük haqqı ödəmirlər.

## 10-cu MADDƏ

## FƏXRİ SƏDR

Fəxri Sədr Azərbaycan Qızıl Aypara Cəmiyyətinə daim köməklik edən, xüsusi və müstəsna xidmətlər göstərən İdarəetmə Şurası, yaxud Rəyasət heyəti tərəfindən təyin edilmiş ictimai xadimdir.

## 11-ci MADDƏ

## ÜZVLƏRİN VƏZİFƏLƏRİ VƏ HÜQUQLARI

**Üzvlər aşağıdakı vəzifələrə malikdirlər:**

- Hərəkatın əsas prinsiplərinə sadiq qalmaq və onları yaymaq;
  Cəmiyyətin işinə kömək etmək;
- Nizamnaməni tanımaq və ona tabe olmaq;
- İllik üzvlük haqqını ödəmək;
- Cəmiyyətin tədbirlərində fəal iştirak etmək.

**Üzvlər aşağıdakı hüquqlara malikdirlər:**

- İdarəetmə orqanlarına seçilmək və seçmək;
- Cəmiyyətin Baş Məclis, İdarəetmə Şurası, Rəyasət heyəti iclaslarında iştirak etmək və səs vermək, seçildikdə təşkilatın yüksək səviyyələrdəki orqanlarının işində iştirak etmək və ya səs vermək;
- Cəmiyyətdəki istənilən rəhbərliyə təkliflər vermək və rəhbərlik qarşısında məsələ qaldırmaq.

Azərbaycan QAC üzvlüyünə daxil olan hər bir kəs aşağıdakı məzmunda **«Azərbaycan QAC Andı»** içir:

**« MƏN, ( adı, atasının adı, soyadı) Azərbaycan QAC sıralarına daxil olarkən, təntənəli surətdə and içirəm.Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Əsas Prinsiplərinə, Cəmiyyətin humanitar missiyasına sadiq qalacaq, öz əməli işimlə, imkanım daxilində Cəmiyyətin fəaliyyətinə yaxından köməklik göstərəcəyəm.Əgər öz andıma xilaf çıxsam, onda könüllü olaraq Cəmiyyətin sıralarını tərk edəcəyəm».**

Azərbaycan QAC Andı üzvlüyə qəbul zamanı ərizə ilə birlikdə ilk təşkilatlar və ya yerli komitələr tərəfindən qəbul edilərək rəsmiləşdirilir.

### Üzvlük statusunun itirilməsi

Cəmiyyətin hər hansı üzvü istənilən vaxt fəaliyyətinin dayandırılmasını yazılı şəkildə elan edə bilər.

Həqiqi üzv olma 12 təqvim ayından sonra başa çatır. 12 təqvim ayından sonra illik üzvlük haqqı təzələnir. İllik üzvlük haqqı verən həqiqi üzvlər illik üzvlük haqqının bitməsinə bir ay qalmış illik üzvlük haqqının təzələnməsi zərurətinə dair xəbərdarlıq alırlar.

Yerli Komitələr, ilk təşkilatlar ciddi səbəblərə görə üzvləri xaric edə bilərlər, üzvlərə xaric olunmalarına dair dərhal məlumat verilir. Belə xaric edilmiş hər hansı bir üzv qərarın qəti olduğunu bildikdə Azərbaycan QAC Rəyasət heyətinə, Arbitraj Komissiyasına appelyasiya ilə müraciət etmək hüququna malikdir. Arbitraj Komissiyası appelasiya şikayətinə bir ay müddətində baxıb qərar verir.

Rəyasət heyəti və ya İdarəetmə Şurası heç bir üzvə qarşı ədalətsizliyə yol verilməməsi, müraciətlərə ədalətlə və qanun çərçivəsində baxılmasını təmin etmək üçün müraciətlərə baxılmaq üçün İdarəetmə Şurası tərəfindən qəbul olunmuş müvafiq qaydalar tətbiq edir.

Fundamental prinsiplərlə bir araya sığmayan hərəkətlərə yol vermiş, Cəmiyyətin adına, imicinə və ya işinə zərər gətirən işlərə cəlb olunan üzvlər Azərbaycan Qızıl Aypara Cəmiyyətinin üzvlüyündən xaric olunurlar.

Fəal , həqiqi və kollektiv üzvlər illik üzvlük haqqını ödəmədikləri təqdirdə, üzvlük hüququnu avtomatik surətdə itirirlər.

## VI Bölmə

## BAŞ MƏCLİS

### 12-cü MADDƏ

### TƏRKİB

Baş Məclis Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ali idarəetmə orqanıdır.

Baş Məclis aşağıdakı tərkibdən ibarətdir:

a) İdarəetmə Şurasının üzvlərindən;
b) Yerli komitələr tərəfindən seçilmiş ilk təşkilatların nümayəndələri və digər üzvlərdən.

Yerli komitələr və Regional Mərkəzlər tərəfindən seçilmiş nümayəndələrin sayı Azərbaycan QAC Rəyasət heyəti tərəfindən yerli komitənin və Regional Mərkəzin fəal üzvlərinin sayına mütənasib olaraq maksimum 5 nəfər müəyyənləşdirilir. Belə ki, üzvlərinin sayına görə ən böyük olan komitə üçün 5 nəfər, ən kiçik komitə üçün 1 nəfər, orta hədd təşkil edən komitələr üçün say 1-5 nəfər arası müəyyən edilir.

Yerli Komitələrdən və Regional Mərkəzlərdən Baş Məclisəə nümayəndələrin seçilmə qaydası Azərbaycan QAC Rəyasət Heyəti tərəfindən müəyyənləşdirilir.

Üzvlük statusunu itirmiş, seçildiyi yerli komitələrin mənafeyini müdafiə etməyən, öz səlahiyyətlərini layiqincə yerinə yetirməyən, Baş Məclisin (İdarəetmə Şurası) iclaslarında müntəzəm iştrak etməyən, səhhəti ilə bağlı, eləcə də ərizəsi ilə səlahiyyətlərindən könüllü imtina edən və s. səbəblərdən Baş Məclisin nümayəndələri seçildikləri yerli komitələr tərəfindən geri çağırıla bilərlər. Bu halda yerli komitələrin növbəti və ya növbədənkənar konfranslarında Baş Məclisə yeni nümayəndə seçilə bilər.

Bu qayda vəfat etmiş Baş Məclis nümayəndəsinə də şamil edilir .

**13-cü MADDƏ**

**SƏLAHİYYƏT**

Baş Məclis Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ən ali idarəetmə orqanıdır;
Baş Məclis Cəmiyyəti idarə edən missiya və siyasi xətlərə dürust xülasə verir;
Baş Məclis Azərbaycan Qızıl Aypara Cəmiyyəti İdarəetmə Şurasının üzvlərini seçir;
Baş Məclis hesabat dövrü üçün Cəmiyyətin Prezidentinin məruzəsini dinləyir və təsdiq edir;
Baş Məclis Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidentini seçir;
Baş Məclis 2 vitse-prezidenti seçir;
Baş Məclis Maliyyə Komissiyasını, Arbitraj Komissiyasını və onların sədrlərini seçir, habelə Baş Məclisin gündəliyi barədə qərar qəbul edir.
Baş Məclis gələn dövr üçün üzvlük haqqlarının miqdarını müəyyənləşdirir;
Baş Məclis cari dövrdə yaranmış vəziyyətə müvafiq olaraq, Nizamnamənin təkmilləşməsini təmin edir, zəruri əlavə və dəyişikliyi təsdiq edir, zəruri halda yeni Nizamnamə qəbul edir,
Baş Məclis Cəmiyyətin əmlakının formalaşmasını və istifadə prinsiplərini müəyyən edir,
Baş Məclis Cəmiyyətin icra orqanlarının yaradılması və onların səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması haqqında qərar qəbul edir,
Baş Məclis Cəmiyyətin başqa təşkilatlarda iştirakına razılıq verir,
Baş Məclis Cəmiyyətin yenidən təşkili və ləğv edilməsi barəsində qərar qəbul edir.,
Baş Məclis daxili qaydaları müəyyən edir, müvafiq qanunların Qızıl Xaç və Qızıl Aypara Hərəkatının əsas müddəalarına uyğun olub olmamasını öyrənir və müvafiq təkliflər verir.
Baş Məclis zəruri hallarda vaxtından əvvəl seçkilər keçirmək haqqında qərar qəbul edir.

Baş Məclis «**Qızıl Aypara**» medalı və «**Qızıl Aypara**» xüsusi mükafatını, müvafiq fəxri adları, nişanları və s. təsis edir.Medal, mükafat və s. təltif edilmə qaydalarını Azərbaycan QAC Rəyasəti müəyyən edir.
Baş Məclis Azərbaycan QAC-ın fəal, həqiqi və fəxri üzvlərini, eləcə də Cəmiyyətin fəxri sədrini respublikanın ictimai həyatında əvəzsiz rolunu və təşkilatın inkişafında xüsusi xidmətlərini nəzərə alaraq, həmin şəxslərin təltif edilməsi və onların müxtəlif seçkili orqanlara namizədliklərini vermək üçün tədbirlər görür, bu məsələlərlə əlaqədar müvafiq təkliflər verir.

**14-cü MADDƏ**

**BAŞ MƏCLİSİN VƏ BAŞ MƏCLİSİN FÖVQƏLADƏ SESSİYASININ ÇAĞIRILMA QAYDASI**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Baş Məclisi ötən Baş Məclis, yaxud Baş Məclisin ona vermiş olduğu səlahiyyət daxilində fəaliyyət göstərən İdarəetmə Şurası tərəfindən təyin olunmuş vaxtda və yerdə qanunvericilikdə müəyyən edilmiş müddətdən az olmayaraq keçirilir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Baş Məclisinin Fövqəladə Sessiyasıı Prezidentin təşəbbüsü ilə Azərbaycan QAC Rəyasət Heyətinin razılığı əsasında və ya İdarəetmə Şurası üzvlərinin 2/3-nin müraciəti ilə çağırıla bilər.

## 15-cı MADDƏ

## BAŞ MƏCLİSİN SESSİYASININ KEÇİRİLMƏ QAYDASI

Baş Məclisə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti, müstəsna hallarda Azərbaycan QAC Rəyasət heyətinin qərarı ilə təyin olunmuş şəxs sədrlik edir. Bütün qərarlar Baş Məclis nümayəndələrinin 2/3-nə bərabər olan yetər sayda, həlledici səsə malik nümayəndələrin sadə səs çoxluğu ilə açıq və ya gizli səsvermə yolu ilə qəbul edilir.Səsvermə qaydasını nümayəndələr özləri müəyyən edirlər.

Prezident və Vitse-Prezidentlər vəzifəsinə yalnız ən azı 4 il Azərbaycan QAC üzvü olan, onun müxtəlif strukturlarında çalışan və fəallıq göstərən, bu sahədə xüsusi xidmətləri olan, üzvlər arasında nüfuza malik, ali təhsilli (məsləhət olunur), biliyi, bacarığı, təcrübəsi, səriştəsi ilə fərqlənən Azərbaycan QAC üzvü seçilə bilər.

Prezident və Vitse-Prezidentlər bu vəzifələrə 2 seçki müddətindən artıq seçilə bilməzlər. Onlar bu vəzifiyə müəyyən fasilədən sonra yenidən seçilmək hüququna malikdirlər.

Hər nümayəndə bir səsə malikdir.

Dəvət olunanların səsvermə hüququ yoxdur.

## V Bölmə

## İDARƏETMƏ ŞURASI

## 16-cı MADDƏ

## TƏRKİB

İdarəetmə Şurası Baş Məclislərlararası dövrdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətinə rəhbərliyi həyata keçirən orqandır.

İdarəetmə Şurası Baş Məclisin seçdiyi 59 üzvdən ibarətdir, yəni:

a) Prezident və vitse-prezidentlərdən;
b) Rəyasət heyətinin uzvlərindən;
c) Qızıl Aypara Cəmiyyətinə xüsusi maraq göstərən dövlət və yerli özünü idarəetmə orqanlarının və ayrı-ayrı qeyri-hökumət təşkilatlarının seçdiyi 10 nəfərdən;
d) Qızıl Aypara Cəmiyyətinə göstərdikləri yardım və diqqətə görə seçilmiş 7 nəfərdən;
e) Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ilk təşkilat, yerli komitə və Regional Mərkəzlərinin fəal nümayəndələrindən;

İdarəetmə Şurası üzvlərinin mandatlarının etibar müddəti 4 ilə bərabərdir. İdarəetmə Şurasının üzvləri bu vəzifəyə 2 seçki müddətindən artıq seçilə bilməzlər.

Onlar yenidən bu vəzifəyə müəyyən fasilədən sonra seçilmək hüququna malikdirlər.

**17-ci MADDƏ**

**SƏLAHİYYƏT**

İdarəetmə Şurası 2 ildə bir dəfədən az olmayaraq konfrans keçirir.

1) İdarəetmə Şurası hazırkı Nizamnaməyə əsasən, Baş Məclis tərəfindən qəbul edilmiş qərarlar və ümumi direktivlər çərçivəsində Cəmiyyətin məqsəd və məramlarının həyata keçirilməsi üçün gərəkli olan bütün səlahiyyətlərə malikdir;
2) İdarəetmə Şurası öz Konfransında Rəyasət Hey,ətinin qəbul etdiyi qərarları təsdiq və ya ləğv edir.
3) Cəmiyyətin planlarını və büdcələrini, fəaliyyət və maliyyə hesabatlarını təsdiq edir;
4) Uzunmüddətli fəaliyyət göstərməni təmin edir və işlərin Birincilik dərəcəsinə dair müvafiq qərarlar qəbul edir;
5) Cəmiyyətin səmərəliliyinə münasibətdə geniş perspektivin saxlanılması, İcraçı Katibun və Cəmiyyətin işinin həyata keçirilməsinə qiymət verir;
6) Regional Mərkəz və Yerli Komitələrin təsis edilməsi və onların buraxılmasını təmin edir;
7) Üzvlərin rəhbər orqanlarda və komissiyalarda fəaliyyətinə nəzarət edir;
8) Hazırkı Nizamnaməni həyata keçirmək üçün lazım olan bütün qaydaları yaradır, təsdiq və ya əlavələr edir;
9) Bu vəzifələri həyata keçirmək üçün arzu olunan və ya gərəkli hesab olunan komitələri və ya komissiyaları yaradır;
10) Cəmiyyətin fəaliyyət proqramını müəyyən edir;

İdarəetmə Şurası Azərbaycan QAC Rəyasət Heyətinin tərkibini seçir və zəruri hallarda Rəyasət Heyəti üzvlərinin digər respublikaya getməsi ilə əlaqədar yaşayış yerini dəyişdikdə, vəfat etməsi, ağır xəstəliklə əlaqədar öz missiyasını yerinə yetirə bilməməsi, öz xahişi ilə müraciət etməsi və s., həmçinin, fəaliyyətində yol verdiyi ciddi xətalarla əlaqədar Rəyasət heyətinin tərkibində müəyyən dəyişiklik edir.

İdarəetmə Şurasının fövqəladə konfransları Prezidentin təşəbbüsü Azərbaycan QAC Rəyasət heyətinin qərarı ilə və ya İdarəetmə Şurası üzvlərinin 2/3 -nin müraciəti ilə keçirilə bilər.

**İDARƏETMƏ ŞURASININ KONFRANSININ**

**KEÇİRİLMƏ QAYDASI**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti, müstəsna hallarda Azərbaycan QAC Rəyasət Heyətinin qərarı ilə təyin olunmuş şəxs İdarəetmə Şurası konfransına sədrlik edir. İdarəetmə Şurası öz qərarlarını sadə səs çoxluğu ilə qəbul edir. İdarəetmə Şurasının konfransları üzvlərin 2\3-si iştirak etdikdə səlahiyyətli hesab edilir.

İdarəetmə Şurası üzvlərinin hər biri bir səsə malikdir.

## VI Bölmə

## AZƏRBAYCAN QAC RƏYASƏT HEYƏTİ

**18-ci MADDƏ**

## RƏYASƏT HEYƏTİ VƏ ONUN TƏRKİBİ

Rəyasət heyəti İdarəetmə Şurasının konfransları arasında rəhbərliyi həyata keçirən orqandır. Rəyasət heyəti üzvlərinin sayı İdarəetmə Şurası tərəfindən 9 nəfərdən ibarət təsdiq edilir.

Rəyasət heyəti Prezident, Məsul Katib və Baş Məclis tərəfindən 4 il müddətinə seçilmiş digər İdarəetmə Şurası üzvlərindən ibarətdir.

Rəyasət heyətinin üzvləri bu vəzifəyə 2 seçki müddətindən artıq seçilə bilməzlər.Onlar bu vəzifəyə müəyyən fasilədən sonra yenidən seçilmək hüququna malikdirlər.

Rəyasət Heyəti vitse-prezidentlərin, İcraçı Katib və onun müavinlərinin, QAC Naxçıvan MR komitəsinin sədrinin, sədr müavinin və ona daxil olan şəhər və rayon komitə rəhbərlərinin, həmçinin, bütün yerli komitə və Regional Mərkəz rəhbərlərinin işini daim nəzarətdə saxlayır, onların işini müzakirə edir və lazım olduqda onlara qarşı müvafiq cəza tədbirləri ( xəbərdarlıq, ciddi xəbərdarlıq, töhmət, şiddətli töhmət ,həmçinin vəzifə öhdəliklərini yerinə yetirmədikləri təqdirdə onları işdən azadetmə və onların funksiyalarını cəmiyyətin müvafiq üzvlərinə həvalə etmə ) tətbiq edə bilər.Bu halda Rəyasət Heyətinin qərarı dərhal yerinə yetirilməlidir. Rəyasət Heyətinin qərarı ilə razılaşmayan QAC üzvü appelyasiya şikayəti ilə Arbitraj Komissiyasına müraciət edə bilər. Arbitraj Komissiyası appelasiya şikayətinə bir ay müddətində baxıb qərar verir.

Rəyasət Heyəti üzvləri seçildikdən sonra özündə zəruri göstəriciləri əks olunan ( Adı, soyadı, atasının adı, təvəllüdü, QAC üzvü olması,gün, ay, ili, təhsili və s.) and içmə anketini imzalayır:

**« MƏN, ( adı, atasının adı, soyadı) Azərbaycan QAC Rəyasət Heytinin üzvü kimi şərəfli və çox məsuliyyətli bir işə başlayarkən, təntənəli surətdə and içirəm.Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Əsas Prinsiplərinə, Cəmiyyətin humanitar missiyasına, Cəmiyyətin Nizamnaməsinə, Baş Məclis və İdarəetmə Şurasının qərar və direktivlərinə sadiq qalacaq, öz əməli işimlə,bilik və təcrübəmlə imkanım daxilində Cəmiyyətin fəaliyyətinə yaxından köməklik göstərəcəyəm.Əgər öz andıma xilaf çıxsam, onda könüllü olaraq öz vəzifəmdən istefa verəcəyəm ».**

**Anketin formasını Azərbaycan QAC Rəyasət Heyəti müəyyən edir.**

## 19-cu MADDƏ

## SƏLAHİYYƏT

Rəyasət heyəti Nizamnamə və Azərbaycan Qızıl Aypara Cəmiyyəti Baş Məclisinin, İdarəetmə Şurasının ona həvalə etdiyi bütün səlahiyyətlərə malikdir. Rəyasət heyəti Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Nizamnaməsində öz əksini tapan bütün əsas fəaliyyət sahələrini müzakirə edir və müvafiq qərarlar qəbul edir.

## 20-ci MADDƏ

## İCLAS

Rəyasət heyəti hər 3 ayda bir dəfədən az olmayaraq öz iclasını keçirir.

Rəyasət heyətinin iclasına Cəmiyyətin Prezidenti, Prezident iştirak etmədiyi təqdirdə Rəyasət Heyəti üzvlərindən biri, yaxud Məsul Katib sədrlik edir.

Rəyasət heyəti öz qərarlarını sadə səs çoxluğu ilə qəbul edir. Rəyasət Heyətinin iclasları üzvlərin 2\3-si iştirak etdikdə səlahiyyətli hesab edilir.

Rəyasət heyətinin üzvləri yalnız bir səsə malikdir.

## 21-ci MADDƏ

## PREZİDENT

Prezident Azərbaycan Qızıl Aypara Cəmiyyəti işlərinin idarə edilməsinə və Baş Məclis, İdarəetmə Şurası, Rəyasət heyəti və komissiyaların qəbul etdiyi qərarların həyata keçirilməsinə ümumi rəhbərliyi təmin edir.

Prezidentə səlahiyyət verilir ki, Baş Məclis, İdarəetmə Şurası, Rəyasət heyəti və komissiyaların iclaslararası dövründə, yaxud bu orqanlar müstəsna hallarda öz iclaslarını keçirməyə imkanları olmadıqda istənilən təcili tədbir görsün, bu şərtlə ki, Prezident həmin orqanların birinci iclaslarına bu tədbirlər barədə hesabat təqdim etsin.

**Prezidentin funksiyaları:**

a) Baş Məclis, İdarəetmə Şurası və Rəyasət heyətinin sessiyalarını çağırmaq və sədrlik etmək;
b) Həmin orqanlara Cəmiyyətin fəaliyyətinə dair hesabat vermək;
c) Cəmiyyətin orqanlarının işini əlaqələndirmək;
d) Həm milli, həm də beynəlxalq səviyyədə Cəmiyyəti təmsil etmək;
e) Baş Məclis, İdarəetmə Şurası və Rəyasət heyəti tərəfindən həvalə edilmiş istənilən digər funksiyanı həyata keçirmək.
J) Müntəzəm olaraq İcraçı Katibin hesabatını dinləmək və bu barədə müvafiq qərar qəbul etmək,
Z) Cəmiyyətin strateji xəttini istiqamətləndirmək,
K) Dövlət-hökumət orqanları, eləcə də beynəlxalq təşkilatlarla əlaqələri tənzimləmək.

Prezident bu maddədə nəzərdə tutulan funksiyaların bir hissəsini vitse-prezidentlərdən birinə həvalə edə bilər.

Prezident müvəqqəti olmadığı hallarda onu Prezidentin əmri ilə vitse-prezidentlərdən biri, yaxud istisna hal kimi İcraçı Katib əvəz edir.

Prezident yeri boşaldığı təqdirdə, Rəyasət heyəti və ya İdarəetmə Şurası özünün növbəti adi sessiyasında Baş Məclisin növbəti sessiyasına qədər Prezidentin səlahiyyətlərini icra edəcək vitse-prezidenti təyin etməlidir. Baş Məclis isə yeni Prezident seçməlidir.Baş Məclis yeni Prezident seçənə kimi, Rəyasət heyəti və ya İdarəetmə Şurası tərəfindən təyin edilən vitse-prezident Prezident əvəzi funksiyasını yerinə yetirir.

Prezident 4 il müddətinə seçilir və o, bu vəzifəyə 2 seçki müddətinə seçilə bilər.

O, bu vəzifəyə müəyyən fasilədən sonra yenidən seçilmək hüququna malikdir.

## 22-ci MADDƏ

## İCRAÇI KATİB

İcraçı Katib Prezidentin təqdimatı əsasında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Rəyasət heyəti tərəfindən təyin olunur. O, İdarəetmə Şurasının işləyib hazırladığı ümumi siyasət və direktivlərin həyata keçirilməsinə məsuliyyət daşıyır.

İcraçı Katibin Baş Məclis, İdarəetmə Şurası, Rəyasət heyətində və digər rəhbərliketmə orqanlarında səs vermək hüququ yoxdur və o, yalnız məsləhətçi qismində iştirak etmək hüququna malikdir.

**İcraçı Katib aşağıdakı funksiyalara malikdir:**

a) Baş Məclis, İdarəetmə Şurası və Rəyasət heyətinin qərarlarını və Cəmiyyətin digər rəhbər orqanları tərəfindən ona verilmiş olan tapşırıqları yerinə yetirmək;
b) Katibliyi idarə etmək və Katibliyə həvalə edilmiş işin yerinə yetirilməsinə cavabdehlik daşımaq;
c) Budcələri və maliyyə hesabatlarını tərtib etmək;
d) Baş Məclis, İdarəetmə Şurası və Rəyasət heyətinin qərarlarına uyğun olaraq Katibliyin müxtəlif xidmətlərini təşkil etmək, Katibliyi səlahiyyətli işçi heyəti ilə təmin etmək və lazım gəldikdə belə işçi heyətinin fəaliyyətini dayandırmaq;
e) İcraçı Katibin təklif etdiyi namizədləri Rəyasət heyəti təsdiq etdikdən sonra Prezident İcraçı Katibin müavinlərini təyin edir;

f) Baş Məclis, İdarəetmə Şurası və Rəyasət heyəti tərəfindən həvalə edilmiş işlərə rəhbərlik edir.
g) Nizamnamə çərçivəsində Rəyasət heyəti, İdarəetmə şurası və ya Prezident tərəfindən ona həvalə edilmiş olan istənilən digər funksiyaları həyata keçirmək;
h) Baş Məclis, İdarəetmə Şurası və Rəyasət heyətinə Cəmiyyətin işlərinə dair hesabat vermək;

Öz funksiyalarını yerinə yetirərkən İcraçı Katib mütəmadi olaraq Prezidenti və Vitse-Prezidentləri dolğun məlumatlandırmalıdır.

İcraçı Katib Katibliyin strukturunu yaradır və Katiblik strukturunun ümumi sxemini Rəyasət heyətinin təsdiqinə verir.

## VII Bölmə

## AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİNİN

## İLK TƏŞKİLAT VƏ KOMİTƏLƏRİ, REGİONAL MƏRKƏZLƏRİ

### 23-cü MADDƏ

### İLK TƏŞKİLATLAR

Azərbaycan Qızıl Aypara Cəmiyyəti özünün ilk təşkilatlarını yaradır, bu təşkilatlara həvalə edilmiş ərazinin sərhədlərini müəyyən edir və verilmiş ərazidə fəaliyyət göstərmək üçün onlara zəruru səlahiyyətlər verir. İlk təşkilatlar Azərbaycan Qızıl Aypara Cəmiyyətinin rayon və şəhər komitələrində, regional mərkəzlərində birləşirlər.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ən azı 3 üzvünün təşəbbüsü ilə ilk təşkilatlar yaradıla bilər.

Azərbaycan QAC Rəyasət heyəti ilk təşkilatlarda hesabat- seçki yığıncaqlarının keçirilməsi barədə qərar qəbul edir.

İlk təşkilatların yaradılma qaydasını Azərbaycan QAC Rəyasət Heyəti müəyyən edir, Respublikanın bütün ərazisində, müxtəlif sahələrdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətini həyata keçirmək üçün ilk təşkilatlar yaradır. Bu təşkilatlara fəaliyyət göstərmək üçün onlara zəruri saydığı səlahiyyətlər verir.

Hər bir ilk təşkilat demokratik mərkəziyyət çərçivəsində fəaliyyət göstərir.

Hər bir QAC ilk təşkilatlarında təşkilatın cari işlərinin vəziyyətini müzakirə etmək üçün, eləcə də maliyyə – təsərrüfat fəaliyyətini təhlil etmək məqsədi ilə ildə bir dəfədən az olmayaraq öz yığıncaqlarını keçirə bilər.

QAC ilk təşkilatlarında hesabat-seçki yığıncaqlarları 2 ildə bir dəfə keçirilir;

QAC ilk təşkilat yığıncaqları arasında ilk təşkilatın 3 nəfərdən ibarət bürosu fəaliyyət göstərir və qərarlar qəbul edir;

QAC ilk təşkilatının yığıncağına və bürosuna təşkilatın rəhbəri sədrlik edir;

İlk təşkilatların işinə onların daxil olduğu rayon və ya şəhər komitələri nəzarət edir.

## 24-cü MADDƏ

## RAYON VƏ ŞƏHƏR KOMİTƏLƏRİ

QAC Rayon və şəhər komitələrinin yaradılma qaydasını Azərbaycan QAC Rəyasət Heyəti müəyyən edir.

Rəyasət Heyətinin qərarı ilə Respublikanın bütün ərazisində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətini, humanitar işini həyata keçirmək, ölkənin bütün əhalisini öz işinə cəlb edə bilməsi üçün Cəmiyyətə ölkənin bütün ərazisindən üzvlər toplamağa imkan verəcək rayonlarda rayon, şəhərlərdə şəhər komitələri yaradılır. Bu komitələrə inzibati bölgü çərçivəsində həvalə edilmiş ərazinin sərhədlərini təyin edir və verilmiş ərazidə fəaliyyət göstərmək üçün onlara zəruri saydığı səlahiyyətlər verir.

Hər bir rayon, şəhər komitəsi demokratik mərkəziyyət çərçivəsində fəaliyyət göstərir və vaxtaşırı özlərinin Rəyasət heyətinə və daxil olduqları Regional Mərkəzə hesabat verirlər.

Azərbaycan QAC Rəyasət heyətinin qərarı ilə rayon və şəhər komitələri Cəmiyyətin müstəqilliyinə xələl gətirməyən, onun əsas məramlarına zidd olmayan müəyyən layihələrin həyata keçirilməsi ilə bağlı müxtəlif təşkilatlarla əməkdaşlıq müqavilələri bağlaya bilər, sərbəst olaraq müəyyən layihələr, proqramlar həyata keçirə bilər.

Rayon və şəhər komitələrin işinə Regional Mərkəzlər nəzarət edirlər.

## 25-cı MADDƏ

## QAC RAYON VƏ ŞƏHƏR KOMİTƏ

## KONFRANSLARI

Hər bir QAC rayon və şəhər komitələrində təşkilatın cari işlərinin vəziyyətini müzakirə etmək üçün eləcə də maliyyə – təsərrüfat fəaliyyətini təhlil etmək məqsədi ilə 2 ildə bir dəfədən az olmayaraq hesabat-seçki konfranslarını keçirirlər. İlk

təşkilatlar tərəfindən konfransa seçilmiş nümayəndələrin sayı müvafiq QAC rayon və şəhər komitəsinin Rəyasət heyəti tərəfindən ilk təşkilatın fəal üzvlərinin sayına mütənasib olaraq maksimum 5 nəfər müəyyənləşdirilir. Belə ki, üzvlərinin sayına görə ən böyük olan ilk təşkilat üçün 5 nəfər, ən kiçik ilk təşkilat üçün 1 nəfər, orta hədd təşkil edən ilk təşkilat üçün say 1-5 nəfər arası müəyyən edilir.

Hər bir rayon və şəhər komitə konfransları ilə əlaqədar heç bir reqlamentli hal nəzərdə tutulmadığı təqdirdə Azərbaycan QAC Rəyasət heyəti rayon və şəhər komitələrinin tərkibini elə təyin edə bilər ki, hər bir ilk təşkilatın malik olduqları fəal üzvlərin sayına uyğun miqdarda təmsil olunsunlar.

Üzvlük statusunu itirmiş, seçildiyi ilk təşkilatların mənafeyini müdafiə etməyən, öz səlahiyyətlərini layiqincə yerinə yetirməyən, QAC rayon və ya şəhər Komitələrinin konfranslarında, İdarəetmə Şuralarının iclaslarında müntəzəm iştrak etməyən, səhhəti ilə bağlı, eləcə də ərizəsi ilə səlahiyyətlərindən könüllü imtina edən və s. səbəblərdən rayon və şəhər komitələrinin konfrans nümayəndələri seçildikləri ilk təşkilatlar tərəfindən geri çağırıla bilərlər. Bu halda ilk təşkilatların növbəti və ya növbədənkənar ümumi iclaslarında rayon və şəhər konfranslarına yeni nümayəndə seçilə bilər.

Bu qayda vəfat etmiş rayon və ya şəhər konfransı nümayəndəsinə də şamil edilir .

Azərbaycan QAC Rəyasət Heyəti Rayon və şəhər komitə konfranslarının çağırılması barədə qərar qəbul edir və onun icrasına nəzarət edir.

Rayon və şəhər komitə konfransları arasında həmin komitədə 5 nəfərdən ibarət Rəyasət heyəti fəaliyyət göstərir və zəruri qərarlər qəbul edir;

Rayon və şəhər komitə konfranslarına və Rəyasət heyəti iclaslarına komitə sədrləri ( sədr olmadığı təqdirdə sədr müavini) sədrlik edirlər.

Rayon və şəhər komitə konfransları 15 nəfərdən ibarət İdarəetmə Şurasını və 5 nəfərdən ibarət Rəyasət Heyətini seçir.

## 26-cı MADDƏ

## QAC RAYON VƏ ŞƏHƏR KOMİTƏLƏRİNİN

## VƏZİFƏLİ ŞƏXSLƏRİ

QAC rayon və şəhər komitələrinin 2 ildə 1 dəfə keçirilən hesabat – seçki konfransı Komitənin sədrini, sədrin müavinini, maliyyə komissiyasının sədrini, İdarəetmə Şurasının üzvlərini və Rəyasət heyətinin tərkibini seçir.

QAC rayon və şəhər komitələrinin konfransında seçilmiş rəhbər vəzifəli şəxslər yalnız konfransın nəticələri Azərbaycan QAC Rəyasət Heyətində təsdiq olunduqdan və bu barədə Prezidentin müvafiq əmri verildikdən sonra onlar öz səlahiyyətlərini həyata keçirməyə başlayırlar. Konfransın nəticələri təsdiq olunana kimi qeyd olunan komitələrin rəhbər vəzifəli şəxs səlahiyyətlərini müvəqqəti olaraq, Azərbaycan QAC Rəyasət Heyəti tərəfindən təyin olunmuş şəxs və ya sabiq sədr həyata keçirir. Az.QAC Rəyasət Heyəti bu barədə 1 aydan gec olmayaraq qərar qəbul etməlidir.

QAC rayon və şəhər komitələri özlərinin İdarəetmə Şuralarının iclasında hesabat-seçki konfransında seçilmiş İdarəetmə Şurası və Rəyasət Heyəti üzvlərini, eləcə də rəhbər vəzifəli şəxsləri geri çağırmaq hüququna malikdir və geri çağırılmış şəxslər özlərinə qarşı ədalətsizlik edildiyini güman etsələr Az.QAC Rəyasət heyətinə, sonda Arbitraj Komissiyasına appelyasiya şikayəti verə bilərlər.

## 27-ci MADDƏ

## QAC RAYON VƏ ŞƏHƏR KOMİTƏLƏRİNDƏ FÖVQƏLADƏ KONFRANSLARININ ÇAĞIRILMA QAYDASI

QAC rayon və şəhər komitə sədrləri, yaxud komitə üzvlərinin 1/3 – nin müraciəti əsasında həmin komitələrin fövqəladə konfransları keçirilə bilər.

İstisna hallarda Az.QAC Rəyasət heyətinin qərarı ilə komitələrdə fövqəladə konfranslar keçirilə bilər.

## 28-ci MADDƏ

## QAC REGİONAL MƏRKƏZLƏRİ

Azərbaycan QAC Rəyasət Heyətinin qərarı ilə,Respublika ərazisində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətini həyata keçirmək üçün özündə rayon və şəhər komitələrini birləşdirən regional mərkəzlər fəaliyyət göstərir. Azərbaycan QAC Rəyasət Heyəti bu Regional Mərkəzlərə inzibati bölgü çərçivəsində həvalə edilmiş ərazinin sərhədlərini təyin edir və verilmiş ərazidə fəaliyyət göstərmək üçün onlara zəruri səlahiyyətlər verir.

Regional Mərkəzlər öz fəaliyyətləri və onlara daxil olan rayon və şəhər komitələrinin işi haqqında vaxtaşırı olaraq Katibliyə hesabat verir.

QAC Regional Mərkəzlərinə Azərbaycan QAC Prezidenti tərəfindən təyin olunan koordinator rəhbərlik edir.

QAC Regional Mərkəzləri ona daxil olan yerli komitələrin işini koordinasiya və nəzarət edir.Katibliyin tapşırıqlarının yerinə yetirilməsi sahəsində yerli komitələrə hərtərəfli əməli yardım və köməklik göstərir.

QAC Regional Mərkəzlər Azərbaycan QAC Rəyasət Heyətinin razılığı əsasında istənilən strukturlar və təşkilatlarla müqavilə bağlayıb müəyyən proqramlar həyata keçirə bilərlər.Bu halda onlar bilavasitə özləri məsuliyyət daşıyırlar. Azərbaycan QAC rəhbərliyi və Katiblik bu məsələlərlə bağlı öz üzərinə heç bir öhdəçilik götürmür.

QAC Regional Mərkəzləri tərəfindən özlərinə qarşı ədalətsizlik edildiyini güman edən şəxslər Azərbaycan QAC Rəyasət heyətinə, sonda isə Arbitraj Komissiyasına appelyasiya şikayəti verə bilərlər.

## 29-cu MADDƏ

## QAC NAXÇIVAN MR KOMİTƏSİ VƏ ONUN İLK TƏŞKİLATLARI, RAYON VƏ ŞƏHƏR KOMİTƏLƏRİ

Naxçıvan Muxtar Respublikasının ərazisində bütün ilk təşkilatlar, rayon və şəhər komitələrinin, Cəmiyyətin Naxçıvan Muxtar Respublika Komitəsinin fəaliyyət qaydası Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Nizamnaməsi ilə tənzimlənir.

QAC Naxçıvan MR Komitəsi və onun ilk təşkilat , rayon və şəhər komitələrində hesabat-seçki konfranslarının keçirilməsi, İlk təşkilat və komitələrin yaradılma qaydasını Azərbaycan QAC Rəyasət Heyəti müəyyən edir.

QAC Naxçıvan MR Komitəsi, onun ilk təşkilat, rayon və şəhər komitələrinin fəaliyyət qaydası, onların yığıncaq və konfranslarının, habelə, fövqəladə yığıncaq və ya konfranslarının keçirilməsi prosedurası, bu strukturların rəhbər orqanlarının və vəzifəli şəxslərinin seçilməsi qaydası Azərbaycan QAC Nizamnaməsinin 23, 24, 25, 26, 27, 28- ci maddələri ilə tənzimlənir.

## VIII Bölmə

## MALİYYƏ VƏZİYYƏTİ

### 30-cu MADDƏ

### VƏSAİTLƏR

Azərbaycan Qızıl Aypara Cəmiyyəti qarşısında duran vəzifə və məqsədlərə çatmaq üçün qanunvericiliklə qadağan olunmamış növlərdə əmlakı sahiblik, istifadə və sərəncam hüququ ilə əldə edir.

- Azərbaycan Qızıl Aypara Cəmiyyəti və onun yerli təşkilatları qanunla qadağan olunmayan mənbələrdən qeyri-məhdud miqdarda ianələr ala bilər.
- Cəmiyyət və onun yerli təşkilatları özünün istənilən fəaliyyəti üçün dövlət büdcəsi xeyrinə qoyulmuş, vergilərdən azad olunan istənilən maliyyə ehtiyatını, sığorta fondunu və digər fondları yarada və idarə edə bilər.
- Cəmiyyət humanitar yardım ehtiyatlarının yaradılması, maddi-texniki bazasını möhkəmləndirmək məqsədi ilə, öz Nizamnaməsi çərçivəsində, fundamental prinsiplərə, emblemlərin istifadə qaydalarına uyğun olaraq, Respublika qanunvericiliyində nəzərdə tutulmuş təsərrüfat, istehsal, xidmət sahələri, səhiyyə və aptek şəbəkələri və s. yarada bilər.
- Cəmiyyət reqional mərkəzləri və erli komitələri tərəfindən bağlanmış müqavilələr qarşısında heç bir öhdəçilik götürmür.
- Yaradılmış qurumlar yalnız Cəmiyyətin maliyyə ehtiyatlarının artırılması üçün fəaliyyət göstərir və məsuliyyət daşıyırlar..
- Cəmiyyət hüquqi və fiziki şəxslərdən, xarici dövlətlərdən və beynəlxalq təşkilatlardan daşınan və daşınmaz əmlak, həmçinin, vəsaitlər, aktivlər, hədiyyə və ya miras alma hüququna malikdir.
- Cəmiyyətin xüsusi mülkiyyətində bütün daşınan və daşınmaz əmlakdan, həmçinin, aktivlərdən Azərbaycan Qanunvericiliyinə və Cəmiyyətin Nizamnaməsinə uyğun olaraq yalnız Cəmiyyət və ya onun tapşırığı ilə yerli təşkilatlar istifadə etmək hüququna malikdirlər.

### 31-ci MADDƏ

### İDARƏETMƏ VƏ NƏZARƏT

Azərbaycan Qızıl Aypara Cəmiyyəti malik oldduğu bütün vəsait və əmlak, habelə QAC rayon, şəhər komitələrinin və Regional Mərkəzlərin, eləcə də QAC Naxçıvan MR Komitəsi və onun yerli komitələrinin bütün vəsaiti və əmlakı Cəmiyyətin mülkiyyətidir.

İdarəetmə Şurası maliyyə komissiyasının nəzərinə çatdırılmayan və bu komissiyada baxılmayan heç bir maliyyə öhdəçiliyi götürə bilməz və onun üçün cavabdehlik daşımır.

## 32-cı MADDƏ

## MALİYYƏ KOMİSSİYASI

Maliyyə Komissiyası Rəyasət heyətinə və İdarəetmə Şurasına məsləhətçi komissiyadır.

Maliyyə Komissiyası Baş Məclis tərəfindən 4 il müddətinə seçilmiş sədrdən və 2 üzvdən ibarətdir. Həmin üzvlər digər orqanlarda, o cümlədən digər komissiyalarda və Rəyasət Heyətində təmsil oluna bilməzlər.

**Maliyyə Komissiyası:**

a) Cəmiyyətlə bağlı bütün maliyyə məsələlərinə dair məsləhətlər verir;
b) İcraçı Katib tərəfindən tərtib edilmiş maliyyə hesabatı və büdcəyə dair fikir söyləyir, ona şərh və xülasə verir;
c) Əldə olan maliyyə vəsaitlərinin işlədilməsinə və qoyuluşuna dair fikir söyləyir və münasib hesab olunan istənilən maliyyə ölçülərinə dair Baş Məcliəsə, İdarəetmə Şurasına və Rəyasət heyətinə məsləhətlər verir;
d) Üzvlər üçün üzvlük haqqı qoyulması formulunu vaxtaşırı nəzərdən keçirir;
e) Cəmiyyətin maliyyə vəsaitinin idarə olunmasına dair Baş Məclis qərarlarının tətbiq olunmasında və həyata keçirilməsində İdarəetmə Şurasına və Rəyasət heyətinə köməklik edir;
f) Baş Məclisə, İdarəetmə Şurasına və Rəyasət heyətinə işi barədə vaxtaşırı hesabat verir.

Maliyyə Komissiyasının prosedur fəaliyyəti və iclasları Baş Məclis tərəfindən təsdiq olunmuş təlimat çərçivəsində həyata keçirilir.

Maliyyə ili hər bir təqvim ilinin Yanvar ayının 1-də başlayır və Dekabrın 31-də başa çatır.

**33-cü MADDƏ**

## BÜDCƏ VƏ NƏZARƏT

İcraçı Katib maliyyə komissiyası ilə birgə illik büdcə tərtib edir. İllik büdcə baxılmaq üçün İdarəetmə Şurasına, yaxud Rəyasət heyətinə və maliyyə komissiyasına təqdim olunur.

Prezident Maliyyə komissiyasının sədri ilə əməkdaşlıq şəraitində qəbul olunmuş büdcənin yerinə yetirilməsinə nəzarət edir.

Zəruri hallarda kənar Auidit Xidmətindən istifadə oluna bilər.

## IX Bölmə

## MÜBAHİSƏLƏRİN HƏLLİ PROSEDURASI

**34-cü MADDƏ**

## ARBİTRAJ KOMİSSİYASI

Arbitraj Komissiyası yalnız Baş Məclisə hesabat verən, qəti qərar vermək səlahiyyətinə malik daimi komissiyadır.

Arbitraj Komissiyası Baş Məclis tərəfindən 4 il müddətinə seçilmiş sədrdən və 2 üzvdən ibarətdir. Həmin üzvlər digər orqanlarda, o cümlədən digər komissiyalarda və Rəyasət Heyətində təmsil oluna bilməzlər.

Azərbaycan QAC-ın bütün strukturlarında Cəmiyyətin istər rəhbər, istərsə də ayrı-ayrı işçiləri tərəfindən Nizamnamə şərtlərinin pozulması ilə əlaqədar yaranan mübahisələr, Cəmiyyətlə bağlı bütün maliyyə və prosedur məsələlərin və s. həll olunması, Rəyasət Heyətlərinin qərarları ilə bağlı, ümumiyyətlə özlərinə qarşı ədalətsizlik edildiyini güman edən, bu məsələ ilə ilk təşkilat, rayon və şəhər komitələrinin, həmçinin Regional Mərkəzlərin rəhbər orqanlarında, son olaraq Azərbaycan QAC-ın Rəyasət Heyətində qəbul olunan qərarla razılaşmayan hər bir Azərbaycan QAC üzvü Arbitraj Komissiyasına appelyasiya şikayəti verə bilər.

Arbitraj Komissiyası appelasiya şikayətinə bir ay müddətində baxıb qərar verir. Arbitraj Komissiyasının qərarından məhkəmə orqanlarına şikayət verilə bilər.

## X BÖLMƏ

**35-ci MADDƏ**

## BEYNƏLXALQ QIZIL XAÇ VƏ QIZIL AYPARA HƏRƏKATININ ÜZVLƏRİ İLƏ ƏMƏKDAŞLIQ

Azərbaycan Qızıl Aypara Cəmiyyəti, Beynəlxəlq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Nizamnaməsinə uyğun olaraq, Beynəlxəlq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası, Beynəlxalq Qızıl Xaç Komitəsi və digər beynəlxalq humanitar təşkilatlarla əməkdaşlıq edir.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti öz humanitar fəaliyyətində Azərbaycan Respublikası ərazisində fəaliyyəti müəyyən edilən və Azərbaycan Respublikası hökuməti ilə bağlanan sazişə əsasən, Beynəlxəlq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının və Beynəlxalq Qızıl Xaç Komitəsinin dəstəyinə və əməli yardımına aprxalanır.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti, Azərbaycan Respublikası Qanunvericiliyinə uyğun olaraq, xarici dövlətlərin Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri ilə əməkdaşlıq edir.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti, Beynəlxəlq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Konstitusiyasına müvafiq olaraq, onun üzvü olmasından irəli gələn hüquqlardan istifadə edərək öz üzərinə öhdəliklər götürür.

## Xİ Bölmə

## PROSEDUR

### 36-cı MADDƏ

### MÜDDƏALAR

İdarəetmə Şurası bu Nizamnamədə tətbiq edilməsi üçün zəruri olan hər hansı müddəanı əlavə etmək və dəyişmək üçün Baş Məclisa öz təkliflərini hazırlayır.

### 37-ci MADDƏ

### NİZAMNAMƏNİN DƏYİŞDİRİLMƏSİ VƏ YA ONA ƏLAVƏLƏR EDİLMƏSİ

Bu Nizamnamə yalnız İdarəetmə Şurasında bu məsələyə baxıldıqdan və Baş Məclisın seçici və iştirakçı üzvlərinin 2/3 hissəsindən çoxu səs verib çıxardığı qərardan sonra dəyişdirilə və ya ona əlavələr oluna bilər. Dəyişiklik, yaxud ona əlavələr barədə layihələr, əvvəlcə, Beynəlxalq Federasiya Nizamnaməsinin 5-2 maddəsinə uyğun olaraq, XXII Beynəlxalq Konfransda (Tehran 1973) qəbul edilmiş VI Qətnaməyə və XXIV Beynəlxalq Konfransda (Manila 1981) qəbul edilmiş XX Qətnaməyə müvafiq olaraq, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası və Beynəlxalq Qızıl Xaç Komitəsinin birgə Komissiyasına təqdim olunmalıdır.

### 38-ci MADDƏ

### LƏĞV EDİLMƏSİ

Azərbaycan Qızıl Aypara Cəmiyyəti ancaq qanun, yaxud Baş Məclisin nümayəndələrinin 2/3-nin iştirak edib yetərsay təşkil etdiyi və iştirakçı nümayəndələrin 2/3-dən çoxunun səs verib çıxardığı qərar əsasında ləğv edilə bilər.

### 39-cı MADDƏ

### NİZAMNAMƏNİN QÜVVƏYƏ MİNMƏSİ

Nizamnamə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Baş Məclisində qəbul edildikdən və Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçdikdən sonra qanuni qüvvəyə minir.